F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Vətən həsrəti ilə qəlbi döyünən şairə Hökumə Billuri

**Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi, ədəbiyyatşünas, tərcüməçi Hökumə Billurinin 100 illik yubileyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2026**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Vətən həsrəti ilə qəlbi döyünən şairə -** Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi, ədəbiyyatşünas, tərcüməçi Hökumə Billurinin 100 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026. –14s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Həyat və yaradıcılığı

*Mən də bir şairəm sinəsi da*

*Ayrılıq nəfəsli hicran soraqlı.*

*Vətənin  qapısı üzümə bağlı,*

*Hər axşam bu dərddən alışır sinəm,*

*Vətən həsrətliyəm, el həsrətliyəm.*

Bu gün Azərbaycan ədəbiyyatının parlaq simalarından biri, əməkdar incəsənət xadimi və Xalq şairi Hökumə Billurinin anadan olmasının 100 ili tamam olur.Onun həyatı, fəaliyyəti və yaradıcılığı Azərbaycan mədəniyyətində əbədi iz buraxıb. Hökumə Billuri 1926-cı ilin martında, Cənubi Azərbaycanın Zəncan şəhərində dünyaya gəlib. Sadə dəmirçi ailəsində böyüyən Hökumə xanım uşaq yaşlarından əməksevər və təhsilə maraqlı olub. 1933-1943-cü illərdə Azəri qızlar məktəbində təhsil alıb və məhz burada müəllim kimi fəaliyyətə başlayıb. Bu illərdə yazmağa başladığı şeirlər onun ədəbiyyata olan həvəsini ortaya qoyub. Onun ilk əsərləri "Azər" və "Vətən yolunda" qəzetləri, həmçinin "Azərbaycan" jurnalında dərc olunub.1940-cı illərin əvvəllərində Cənubi Azərbaycanda milli azadlıq hərəkatı başladı. Seyid Cəfər Pişəvərinin rəhbərlik etdiyi "21 Azər" hərəkatı ətrafında toplaşan gənc ziyalılar və şairlər bu mübarizənin fəal iştirakçılarına çevrildilər. Qısa müddət üçün milli hökumət qələbə qazansa da, İran dövlətinin müdaxiləsi onu devirdi. Hərəkatın öncülləri Arazın bu tayına, yəni Şimali Azərbaycana pənah gətirmək məcburiyyətində qaldılar. Taleyin ironiyası olaraq, 1937-ci ildə sürgün edilən bir qismi 1947-ci ildə yenidən mühacirət etmək məcburiyyətində qaldı.Vətənindən uzaqda yaşamaq, bütöv Azərbaycan həsrəti ilə dolu bir həyat sürmək Hökumə Billurinin yaradıcılığına da təsir etdi. Qəlbindəki ağrını, həsrəti və nisgili o, sözlərlə paylaşaraq intizar ədəbiyyatının formalaşmasına töhfə verdi.Şimali Azərbaycana gəldikdən sonra Hökumə Billuri 1947-1952-ci illərdə Azərbaycan Dövlət Universitetində filologiya təhsili aldı. Sonralar o, Azərbaycan qəzetinin baş redaktoru oldu və təhsilini davam etdirərək Bakı Ali Partiya Məktəbini, sonra isə Moskva Sovet İttifaqı Kommunist Partiyası yanında İctimai Elmlər Akademiyasını bitirdi.1963-cü ildə İran Azərbaycanının realist-demokratik ədəbiyyatı mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi dərəcəsi aldı və bir il sonra Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda baş elmi işçi olaraq fəaliyyətə başladı. Hökumə Billuri həm də tərcüməçi kimi böyük xidmət göstərdi. O, Şəhriyarın fars dilindəki şeirlərini Azərbaycan dilinə, həmçinin Cəfər Cabbarlı, Səməd Vurğun, Mirvarid Dilbazi və Nəbi Xəzrinin şeirlərini fars dilinə çevirdi. Onun

yaradıcılığı və tərcümə fəaliyyəti Azərbaycan və İran ədəbiyyatı arasında körpü yaratdı, fərqli mədəniyyətləri birləşdirdi.

Mənim taleyimdir, mənim taleyim
Ömrümü tufana salanda odur
Xisləti sərt olan bir ana kimi
Həmişə qeydimə qalanda odur.

Mənim taleyimdir, mənim taleyim
O günəş nəfəsli, ay nəfəslidir
Köküylə bağlıdır ana torpağa
O şur nəğməlidir, muğam səslidir.

Şairin əsərlərində vətən sevgisi, azadlıq arzusu və insanpərvərlik mövzuları daim ön plandadır. "Mənim arzum", "Ölməz qəhrəman", "Həyat yollarında", "Mübarizə illərində" və "Şairin yadigarı" kimi əsərlərində həm intizar, həm də ümid duyğusu hiss olunur. Onun monoqrafiyaları isə Azərbaycan realist-demokratik poeziyasının təhlili üçün önəmli qaynaqdır. Hökumə Billuri 2000-ci ilin noyabrında Bakıda vəfat etdi, amma onun yaradıcılığı, idealları və xalqına olan sevgisi hələ də yaşamaqdadır. Şeirlərindəki azadlıq eşqi, vətən həsrəti və insanpərvərlik mesajları oxuculara ilham verir:

"Yenidən doğacaq məni bu bahar,
Fəqət dağ insanı qəm, həsrət əyər.
Azadlıq eşqi ilə irəli dostlar,
İrəli bu yolda ölməyə dəyər".

Bəli, Güney poeziyasının işıqlı səyyarələr asimanından daha bir ulduz axdı. Bu kəhkəşanda öz yeri, öz nuru olan bir səyyarə: Hökumə Bülluri!

Onun keçdiyi yaradıcılıq yollarını nəzərdən keçirdikdə çox uğurlu və mənalı bir mənzərənin şahidi oluruq. Yaşadığı ömür çoxçalarlı, dərəli-təpəli olmuş, digər qələm yoldaşları kimi, keçdiyi yaradıcılıq yolu, qarşılaşdığı acılı-şirinli həyat həqiqətləri onun əsərlərinin başlıca ilham və qida mənbəyini təşkil etmişdir. Bu gün, yubileyində, Hökumə Billurini xatırlayarkən onun Azərbaycan ədəbiyyatına verdiyi töhfələri və xalqın qəlbində yaratdığı izləri bir daha yad edirik. Onun adı həmişə vətənpərvərlik və incəsənət simvolu kimi qalacaq.

Əgər gəlib desələr tufanlar almış məni,
Sıldırım qayalara, daşlara çalmış məni,
Gətirmə xatirinə ölümümü bir an da,
Bil ki, hər fırtınada, tufanda ölmərəm mən.

**Bölmə II**

**Yubiley tədbirlərinin keçirilməsi**

Ötən əsrin 40-cı illərində, İranda-Cənubi Azərbaycanda baş verən milli-azadlıq hərəkatında bir çox şair, yazıçı soydaşlarımız da ön sıralarda yer almışdı. 1946-cı ildə milli hərəkatın qan içində boğulması həmin yazarları sovet Azərbaycanına mühacirətə vadar etdi. Onlar ömürləri boyu şahidi və iştirakçısı olduğu hadisələri ürəklərində və əsərlərində yaşatdılar. Həmin şairlərdən biri də Hökumə Bülluri idi. Qadın şairlərimizin və alimlərimizin istedadlı nümayəndələrindən biri kimi tanınan Hökumə xanımın zəngin və rəngarəng yaradıcılığı ikiyə bölünmüş Azərbaycanın bəlalı taleyinin poetik tərcümanı olmuş, yurd sevgisi ilə aşılanmış və milli varlığımızı qoruyub yaşatmağa səsləmiş mübariz poeziyası, həqiqətən, söz xəzinəmizdə layiqli yer tutur. Anadilli ədəbiyatımızın güney və quzey qollarını təmsil etdiyindən, milli yaddaşın kövrək və ümidli səhifələrini təşkil etdiyindən Hökumə Billuri poeziyası rəmzi "Xalq əmanəti" bankına daxil edilməyə tamamilə layiqdir.

Bəli, əziz oxucu! İllərdir ki, xalqın ən çox sevdiyi və müntəzəm oxuduğu xoşbəxt qələm sahiblərindən biri kimi tanınan Hökumə Bülluri yaradıcılığına bir daha müraciət edəcəyik. Beləki, onun bir şair kimi, bir insan kimi tanınmasını və yaradıcılığının geniş təbliği üçün bu gün respublika səviyyəsində tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Şairin 100 illik yubileyi ilə əlaqədar olaraq respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxana, lisey, gimnaziyalarda tədbirlərin keçirilməsinə start verilmişdir. F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, ilk növbədə yubileylə bağlı oxu zalında foto sərgi və kitab sərgisi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Mən baharda doğulmuşam", "Ayrılıq həsrətli, Vətən soraqlı...", "Mənim sevimli dünyam", "İncə hisslər, zərif duyğular şairi-Hökumə Bülluri", "Hökumə İbrahim qızı Bülluri-100" və s. Sərginin nümunəsini sizlər üçün təqdim edirik:

1.Başlıq-"Hökumə Bülluri-100"

2. Foto albom

3.Kitabların nümayişi

5.Dövrü mətbuatda çap olunun qəzet və məqalələrin kartotekası

6. Şeir parçası

Əgər gəlib desələr dənizlərdə batmışam,
Dalğaların qoynunda əbədilik yatmışam.
İnanma ölümümə, inanma heç zaman sən,
Bil ki, hər fırtınadan, tufandan ölmərəm mən.

## Görkəmli şəxsiyyətlərin Hökumə Bülluri haqqında söylədikləri

Hökumə xanım kövrək şeirlər müəllifi olduğu kimi, həm də son dərəcə mədəni, alicənab insan idi. Onun 20-yaxın kitabı yadigar qalıb. Əsl ziyalı əvvəl mənsub olduğu xalqını, sonra özünü düşünməlidir. Bülluri məhz belə qələm sahiblərindən idi.

Bəxtiyar Vahabzadə
Xalq şairi

"Qızım, sənin yaradıcılığından zövq alıram. Getdiyin yol çətindir, amma şərəflidir. Sənə ürəyincə uğurlar arzulayıram".

Əli Sultanlı
Ədəbiyyatşünas, alim

Hökumə Bülluri təbii, səmimi hisslərlə yaşayan qadındır, anadır, insandır. Onun şeirlərinin ən böyük məziyyəti onların ruhuna hopmuş səmimiyyətidir. Şeirə tale kimi, yazı kimi tapınan bir qələm ustasıdır.

Aybəniz Kəngərli
Filologiya elmləri doktoru

Hökumə xanımın yaradıcılığında bir meyl və qabarıq poetik cizgiləri ilə təzahür edir. O, vətəndə yaşadığı uşaqlıq və gənclik çağlarında Şərq qadınının taleyinə çevrilən acılar və mərhumiyyətlərlə yaxından tanış olmuşdur. Təbbi ki, həyatın nəfəsi özünün min bir irmaqları ilə həssas qəlbə malik olan şairə -Mən öz həyatımı verərdim əgər-Bilsəydim qurtarar möhnətdən səni,-deyə bir ana kimi Şərqin məhrum övladlarını əzab və sıxıntılardan qurtarmaq xatirinə həyatını belə verməyə hazır olduğunu elan edir.

Sabir Nəbioğlu
Filologiya elmləri doktoru

Hökümə xanım həzin, kövrək ürəyi, mübariz ruhu ilə həyatın ağrılarına üstün gələn, həsrətini içində çəkən insandı.

Fəridə Ləman
Filologiya elmləri namizədi

Çox haqsızlıqların, faciəvi hadisələrin iştirakçısı olmasına baxmayaraq yaradıcılığında sabaha ölməyən bir ümid, inam hissi var. "İnanıram o parlaq günə" deyən şairə Vətənin bütövləşəcəyinə və xalqın öz azadlığına qovuşacağına böyük bir inam bəsləyib. Azərbaycan onun şeirlərində bütövdür, tamdır və bölünməzdir. Vahid və azad Azərbaycan ideyası onun həyatının məzmununu və yaşamının qayəsini təşkil edib.

Savalan Fərəcəv
Jurnalist

“Ürək dustaq oldu dərdə, fərağa” desə də, onun ömründən bu günümüzə daim anılan unudulmaz xatirələr yadigar qalmışdır.

Telman Mehdixanlı

Jurnalist

Azərbaycan şairi, ictimai-siyasi xadim Hökumə Billurinin yubileyi münasibətilə keçirilən tədbirlərdən biri kitab icmalıdır. Kitab icmalına kitabxanaçı şair və yazıçılarla yanaşı , tərcüməçilər, şərqşünaslar və digər sahələrdən olan ziyalıları dəvət edir. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” verilən sərəncamla bağlı şair Hökümə Büllürinin də “Seçilmiş əsərləri” Bakı, “Şərq-Qərb”, nəşriyyatı tərəfindən 2005-ci ildə nəşr ounmuşdur. İcmalını keçirəcəyimiz kitab Hökumə Büllurinin “Seçilmiş əsərləri” kitabıdır.

Kitabın anatasiyasında qeyd olunur ki, Hökumə Bülluri Azərbaycanın ikiyə bölünməsi faciəsini şəxsi taleyində yaşayan, yarım əsr doğulduğu yerləri, doğma ocağı görmək həsrəti ilə yanıb yaxılan, Təbrizi daim gecələr yuxularında görən, amma yuxuları heç çin çıxmayan bir Azərbaycan şairidir. O, Güney dağlarından bir udum hava, meşələrindən bir yarpaq diləmiş, vətənin suyundan bir ovuc içmək, Arazın o tayına qədəm basmaq həsrəti ilə alışıb- yanmışdır. Kitabda istedadlı şairənin müxtəlif illərdə yazdığı əsərlərindən seçmələr toplanmışdır. Bu poetik nümunələrdə ikiyə bölünmüş vətənin bütövlüyü arzusu, onun gələcəyinə dərin inam, Güney Azərbaycan milli-azadlıq hərəkatı, təbiətə və insana sevgi mötivləri aparıcı yer tutur. Nəşr olunan kitabda Hökumə Billurinin poetik yaradıcılığı və ömür yoluna işıq tutulub, oxuculara şairin demək olar bütün şeirlərinin toplandığı ən müfəssəl əsərləri təqdim edilib. Oxucular şairənin “Ana” şeirini səsləndirirlər.

Təbriz kədərliydi, sən ağlayırdın,
Gecəydi biz səndən ayrılan zaman.
Pərişan görkəmin, o son sözlərin,
Bir an xatirimdən çıxmamış, inan.
Adını dilimə gətirəndə mən,
Sanki alov yaxır dodaqlarımı.
Yaxın gəl, yaxın gəl öpüm üzündən,
Öpüm rəngi qaçmış yanaqlarını.
Elə məlul-məlul baxma üzümə,
Baxışın qəlbimə od saçır, sənin.
Sən yalqız deyilsən, sıxma qəlbini,
Böyük bir xalqın var, böyük vətənin.
O xalqın, o elin qızısan, sən də
Onun qüdrəti də, şöhrəti də var.
Qəhrəman yurdumuz sarsılmamışdır,

Soyub talasa da onu yağılar.
Bilirəm, çox sıxır səni ayrılıq,
Əsarət dünyası başına dardır.
Lakin unutma ki, hər bir gecənin,
Min bir şüa saçan gündüzü vardır!
"Əlimdən nə gəlir?" demə bir daha
Demə ki, qocayam, saçlarım düm ağ.
Vətən öz qəhrəman oğlu, qızını
Hər zaman, hər zaman gənc saxlayacaq.
Alnının xətləri, bəyaz saçların,
Keçmiş həyatından bir yadigardır.
Hörmət o saçlara, nifrət keçmişə:
Bu günün öz adı, mənası vardır!
Qalx ana, qalx ana, səni döyüşə
Çağıran öz qızın, öz vətənindir!
Bax, yanır odlarda Odlar Diyarı,
Bu vətən, bu torpaq, bu el sənindir!

Tədbirin maraqlı və yaddaqalan keçməsi üçün söz qonaqlara verilir.

Onlar da öz növbələrində nümunəvi şair-vətəndaş örnəyi olan Hökumə Billurinin şeirlərinin bədii-estetik məziyyətləri ilə XX əsrin ikinci yarısında milli şeirimizdə önəmli yer tutduğunu, ədəbi irsi, zəngin və çoxşaxəli yaradıcılığından söz açırlar. Onun yazdığı klassik üslubda qəzəllər və bayatılarla yanaşı, müasir həyatımızla bağlı olan əsərləri yüksək sənatkarlıq nümunələri kimi qiymətləndirmişlər. Həmçinin sənətkarın vətən həsrətli şeirləri iki yerə bölünmüş ana torpağın dərdi ilə dolu şeirlərindən bəhs edirlər. Oxucular şairənin "Azərbaycanım" şeirini söyləyirlər.

Haraya getsəm də gözüm səndədir,
Şeirimin axarı, sözüm səndədir,
Gedəsi olarsam, izim səndədir
Əzəli, əbədi yurdum, məkanım.
Behiştim, cənnətim Azərbaycanım!

Doğmadan doğmasan, ey ana yurdum,
Yolunda başımla, canımla durdum.
Sinəndə əbədi bir yuva qurdum,
Dolanım başına, bir də dolanım.
Mənim ömrüm, günüm Azərbaycanım!

Nə qədər dünya var, bu kainat var,
Nə qədər ömür var, gün var, həyat var,

Nə qədər uçmağa məndə qanad var,
Bil, sənsən ilk yuvam, axır məkanım,
Eşqindən məşəltək alışım, yanım.

Səninlə bircanam, bir bədənəm,
Dənizsən, ümmansan, bir qətrənəm mən,
Günəşsən, ulduzsan, bir zərrənəm mən,
Məndən üz döndərmə, ey mehribanım,
Dolanım başına, hər gün dolanım.

Bütün məhəbbətlər uçsa qəlbimdən,
Yenə ömr edərəm xəyalınla mən.
Dünya düşmən olsa dostum ki sənsən,
Doğmadan doğmasan, arxam, gümanım,
Eşqindən səhər də, axşam da yanım.

Səndən yüz yazmışam, min yazsam da az,
Bir qolun Kürdürsə, bir qolun Araz.
Səninlə ömrümüz dönüb olub yaz,
Sənə, bircə sənə qaynayır qanım.
Ey ömrüm, həyatım Azərbaycanım!

Ümidim, arxamsan el bilir bunu,
Yolunda qoy gəlsin ömrümün sonu,
Sazım da, sözüm də ömrüm uzunu,
Səndən söz açmışdır, ey mehribanım,
Dolanım başına, hər gün dolanım.

Bir quşam ilk yurdun, yuvam da sənsən,
Mehriban elim də, obam da sənsən,
Nənəm də, anam da, babam da sənsən,
Köksünə sığınım ata məkanım,
Ümidim, sevincim, Azərbaycanım!

Eşqindən kükrəyən dağ seliyəm mən,
Dünənim, bu günüm, sabahım da sən.
Yaşa əsrlərcə, yaşa ey Vətən!

Ey mənim cahanda dünyam, cahanım!
Ey ömrüm, həyatım, Azərbaycanım!

Hökumə Billurinin 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də “Nağıl saatı”dır. “Nağıl saatı” kitabxananın Nağıl otağında keçirilir. Burada kiçik yaşlı uşaqlar üçün bir çox tədbirlər keçirilir ki, bunlardan ucadan oxu, səhərcik və s. tədbirləri misal göstərmək olar. Hökumə Billurinin yaradıcılığına nəzər saldıqda görürük ki, onun qələmə aldığı şeirlər içərisində balaca fidan balalara aid şeirlər çoxluq təşkil edir. Bunlardan “Laylay”, “Mənim balaca Leylam”, “Kim tez oyansa” və s şeirləri misal göstərmək olar. Nağıl otağı meşə abu-havası ilə bəzədilir. Yaşıl ağaclar, güllər, heyvanların dekorasiyaları qarşısında kitabxanaçı “Kim tez oyansa” adlı şeiri kiçik yaşlı uşaqlara oxuyur. Bir qrup kiçik yaşlı uşaqlar meşə heyvanlarının paltarlarını geyinib səhnəcik göstərirlər.

Çaqqal yuxusundan tezdən oyandı,
Özünü meşənin ağası sandı.
Hələ yuxlayırdı bütün kainat,
Yatırdı canlılar, yatırdı həyat.
Şirin yuxudaydı meşə sultanı.
Mənə bu dünyada tay olan hanı?
Deyə düşünürdü qürurla çaqqal.
Rastına çıxanlar baş əydi dərhal.
Bürüdü qəlbini şübhələr bütün;
Bəlkə o hamıdan üstündür, üstün.
Bəlkə doğrudan da o elə şirdir?
Axı nə fərqi var, hamısı birdir.
Ağlı gözündədir görənlərin də,
Haqqı-həqiqəti bilənlərin də
Haqq sözü deməyə cürəti catmaz.
Qaldı ki, dostları çaqqalı atmaz...
Çaqqal düşünürdü elə bu zaman
Meşədən bağırıb çıxdı bir aslan.
Çaqqal görkəmini dəyişdi dərhal,
Vurnuxub aradan çıxanda çaqqal
İndi də heyvanlar baş əydi şirə,
Elə əyildilər, dəydilər yerə.
Şir ötüb meşədən vüqarla getdi,
Bir anda büsbütün o gözdən itdi...
Necə qəribədir dünyanın işi.
Çaqqal da yerisə aslan yerişi
O da birdən dönüb gözlənilmədən,

Meşədə şir olur, şir olur, bilsən!

Həkimə Billuri yaradıcılığına müraciət etmək, onun yaradıcılığını geniş oxucu kütləsinə sevdirmək üçün keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecə və ya poeziya gecəsidir. Belə tədbirlər oxucuların ən çox maraq göstərdiyi və sevdiyi tədbirlərdəndir. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, **“Ayrılıq həsrətli, vətən soraqlı-Hökümə Bülluri”.** Tədbirin nümunəsini sizlər üçün veririk. Tədbiri təşkil edən kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Ssenari hazırlanır və qonaqların dəvət olunması müəyyənləşdirilir. İştirak üçün bir çox şair və yazıçılar, ədəbiyyat müəllimləri, tərcüməçilər, tələbə və şagirdlər dəvət olunur. Ədəbi-bədii gecənin birinci hissəsi çıxış və məruzələrlə başlayır. İkinci hissədə Hökimə Billurinin yaradıcılığına müraciət olunaraq, onun qələmə aldığı şeirlərindən parçalar və poemalarından səhnəciklər göstərilir. Səhnə gül dəstələri ilə bəzədilir. Şairənin portreti səhnənin divarından asılır.



Aparıcılar səhnəyə daxil olur.

Açın qoynunuzu, açın a dağlar,
Savalan həsrətli bir mehman gəlir
O, dağlar qoynuna köksündə dağlar
Daşqın Araz kimi bağrı qan gəlir.

Ovqatının ən xoşbəxt çağında da yurd həsrəti ona qənim kəsilərdi. Göz ifadəsi dəyişərdi. Sevinci çöhrəsində, təbəssümü dodağında donardı. Əlini hərarətlə, həyəcanla döyünən ürəyinin üstünə qoyardı. Nə faydası, təskinlik tapa bilməzdi. Varlığı gizildəyərdi. Elə bil dilinin üstünə od qoyardılar, danışmağa taqəti olmazdı. Qalardı yana-yana, qıvrıla-qıvrıla. Ən gərgin anlarında gücü gələcək ümidinə, inamına çatardı. Amma onları da özü ilə haqq dünyasına apardı.

Bu gün Xalq şairi Hökumə Billurinin anadan olmasının 100-cü ildönümü tamam olur. Hökumə Billuri əsərlərində Azərbaycanın ikiyə bölünməsi faciəsini bir daha yaşayır. Təbrizi gecələr yuxusunda görüb, amma yuxuları heç zaman çin olmayıb. Güney dağlarından bir udum hava, meşələrindən bir tək yarpaq diləyib, vətənin suyundan bir ovuc içmək və Arazın o tayına qədəm basmaq həsrətini çəkib.

Yuxarıda qeyd etdiyimiz kimi, Hökumə İbrahim qızı Bülluri Cənubi Azərbaycanın Zəncan şəhərində dünyaya göz açmışdı. Bütün uşaqlar kimi , o da qayğısız, xobəxt böyümüşdü. Yeniyetmə yaşına çatanda isə hissləri, duyğyları onun düşüncəsini dəyişər, təfəkküründə haqqa, ədalətə tapınmaq kimi fikirlər oyanardı. Əlbəttdə, bunlar hələ tam formalaşmamışdı. 10-15yaşında qız bilmirdi ki, nə üçün Təbrizdən, Zəncandan qohumları, qonşuları, qardaşları Araz çayının o biri səmtinə can atır, Cənubdan Şimala baş götürüb gedirdilər.

Orta məktəbi yüksək qiymətlərlə bitirdiyi üçün Hökumə Bülluriyə təklif olundu ki, elə orada qalıb müəllim kimi işləsin. Hətta o bu təklifdən fərəhləndi. İlk gündən

etimadı doğrultmağa çalışdı. Lakin duyub, anlayıb görəndə ki, qohum-əqrabaları pərən-pərən düşüb, bəlkə də özündən asılı olmayaraq gileyləndi:
“Dağlar, ox olub gözümə batırsan.
Araz, mənim qanım kimi niyə bulanıq axırsan?
Üzün dönsün, ay xan Araz,
niyə qardaşı qardaşdan ayırırsan?”

Sevincini, kədər və intizarını poetik formada bildirməyi bacaran şair, hələ gələcək qismətini, necə həyat tərzi yaşayacağını bilmirdi. Yalnız xəyalında bu hisslər dolaşırdı: “Zaman, dövran ən ədalətli hökmdar, adil hakimdir”. Və nahayət, gənc qız Arazın bəri səmtinə təşrig gətirir. 20 yaşınada gənc qız üçün, bu, ola bilsin, arzuolunmaz səfər idi. Ancaq o gəlməliydi, başqa əlacı yox idi. Çəkişmələrdən, didişmələrdən can qurtarmalıydı. Qəlbinin kövrəkliyi az keçmiş dil açıb danışdı:
Kaş Təbriz olaydı, bir də o günlər,
Qalib gəldiyimiz o aydın şəhər,
Azadlıq olaydı, bir də ki zəfər,
Qəlblərdə min ümid yandıran atəş,
Üfüqdən bayraq tək enəydi Günəş...

Yurd həsrəti insanın dincliyini ərşə çəkir. Elə hey gözləri yolda, qulağı səsdə qalır. Doğrudur, gənc yaşlarında sovet Azərbaycanına gəlməyinə peşman deyildi. O, Səməd Vurğundan, Mirzə İbrahimovdan, Süleyman Rüstəmdən daim qayğı görürdü. 1947-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olundu. Amma ürəyindən nisgili çəkilmədi. 1952-ci ildə Hökumə Bülluri Şərq dünyasının söz, sənət, poeziya korifeylərindən biri olan Şəhriyara müraciətlə yazmışdı:
Qoy zaman dolansın, səndə belə qal!
Şair dəyişməyə tapmasın macal.
Təbrizi, Zəncanı sən yadına sal,
Gəl öpüm mübarək, odlu sətnini,
Səndən Təbrizimin alım ətrini...
Həyat gözlərimdə sönmədən qabaq,
Sizdən bir diləyim olacaq ancaq.
Tufana, küləyə döndərin məni,
Göndərin vətənə, göndərin məni.

Hökumə Billurinin şeirlərinin böyük bir hissəsi milli faciənin doğurduğu yaşantılar olub. Ağrı-acılarından doğulan şeirləri oxucu qəlbini riqqətə gətirib, kədərləndirib və gözlərini yaşardıb. Təsadüfi deyil ki, onun əsərlərində Təbriz, Araz, Vətən, ayrılıq ən çox təkrarlanan sözlərdir.
Həsrətin yandırar, pörşüdər məni,
Zərif çiçək kimi üşüdər məni,
Səsləsəm Savalan eşidər məni,

Qızınnam oduna, közünə Təbriz!
Çox haqsızlıqların, faciəvi hadisələrin iştirakçısı olmasına baxmayaraq, yaradıcılığında sabaha ölməyən bir ümid, inam hissi aparıcı xətt kimi keçir. "İnanıram o parlaq günə" deyən şairə Vətənin bütövləşəcəyinə və xalqının öz azadlığına qovuşacağına böyük bir inam bəsləyib. Azərbaycan onun şeirlərində bütövdür, tamdır və bölünməzdir. Vahid və azad Azərbaycan ideyası onun həyatının məzmununu və yaşamının qayəsini təşkil edib.

Ölümün gözünün içinə baxıb
Sonra bir şam kimi sönəcəyəm mən
Qartal tək zirvəyə qalxdıqca qalxıb
Sonra bu dünyaya dönəcəyəm mən

Yenidən doğacaq məni bu bahar
Fəqət dağ insanı qəm, həsrət əyər
Azadlıq eşqi ilə irəli dostlar
İrəli bu yolda ölməyə dəyər.

Poetik yaradıcılığa hələ orta məktəb illərində başlamış Billurinin ilk şeir və məqalələri 1945-ci ildə "Azər" və "Vətən yolunda" qəzetlərində, "Azərbaycan" jurnalında, dərc olunub. "Mənim arzum", "Ölməz qəhrəman", "Həyat yollarında", "Mübarizə illərində", "Şeirlər", "Şairin yadigarı", "Səhər günəşi", "Səndən uzaqlarda, "İstərəm", "Necə unudum" , "Çinar gözləyir məni", "Apar məni o yerlərə", Bir də bahar gəlsə", "Seçilmiş əsərlər" "Dünya belə dünyadır", "Nə qəribə dünya imiş" kimi çoxsaylı şeir kitablarının, "1940-1960: İran Azərbaycanında realist-demokratik poeziya" və "Məhəmmədhüseyn Şəhriyar" monoqrafiyalarının müəllifidir.

Hökumə Büllurinin elmi axtarışları İran Azərbaycanı ədiblərinin yaradıcılığı ilə çox bağlı olmuşdur. Onun Şəhriyara həsr etdiyi sanballı əsərləri ədəbiyyatşünaslığımızda xüsusi yer tutmuşdur. Məhəmməd Hüseyn Şəhriyarın Hökumə Bülluriyə həsr etdiyi şeirlər Bülluri yaradıcılığına verilən ən yüksək qiymətlərdən biridir.

Bir sözlə, vətənpərvər şair, zəhmətkeş alim, gözəl insan Hökumə Büllurinin əziz xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Əgər bir gün unutsaz mənim olum günümü,
Sizdən bir az inciməm;
Birinizdən inciməm,
Candan əziz doğmalar.
Mavi ekran bu günə xeyir-dua verəndə,
Düşünürəm, nə qədər mənim istəyənim var.
O taylı, bu taylıdır anam Azərbaycanım,
Qəlbi günəşdən uca alışanım, yananım.

Qədirbilməz olmadım qədir bilən xalqıma;
Elə olum günümdən fədasıyam bu elin.
Arxasınca kölgəsi,
Bəlkə uzaq sədası,
Nəvasıyam bu elin.
Azərbaycan yolunda bir məşələm çalışan,
Öləndə ürəyimdir,
Ölməyən diləyimdir
Torpağına qarışan.

## ƏDƏBİYYAT SİYAHISI

www. Google. Az.
1. H. Billuri. Seçilmiş əsərləri. B.: Şərq-Qərb, 2005.-224 s.
2. H. Billuri. Apar məni o yerlərə.B.: Yazıçı, 1981.- 120 s.
3. H. Billuri. Çinar gözləyir məni. B.: Azərnəşr, 1976.-119 s.
4. H. Billuri. Istərəm. B.: Azərnəşr, 1969.-314 s.